

**VAQİF ABDULLAYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV DİPLOMATİYASI MİLLİ MÜSTƏQİLLİYİMİZİN RƏHNİDİR

Ölkə Prezidenti cənab Heydər Əliyevin Vətənə ikinci qayıdışı ərəfəsində Azərbaycan 20 Yanvar faciəsindən dərin sarsıntı keçirmiş, hətta sovet imperiyasının xalqımıza qarşı qanlı siyasətinə olan barışmaz nifrəti onu ümumiyyətlə siyasətdən uzaqlaşmaq əqidəsinə gətirib çıxarmışdı. Lakin bir əqidə onun inamını söndürməmişdi: xalqımın böyüklüyü ondadır ki, o, dərdinin, faciəsinin ağırlığını ləyaqətlə çəkməyi bacarır. Xalqının tarixi keçmişini dərindən öyrənmiş Heydər Əliyev bunu da çox gözəl bilirdi ki, Azərbaycan diplomatiyası əsrlər boyu sülh məramlı mövqe tutmuş, Azərbaycan xalqının məşəqqətli anlarında sağlam dözümlülük nümayiş etdirmişdir. Azərbaycanın tarixi taleyinin önəmli cəhəti bundadır ki, ölkənin cəlbedici geosiyasi vəziyyətindən doğan bir çox mürəkkəb hadisələrin cərəyan etməsinə baxmayaraq, Azərbaycanın dövlət xadimləri həmişə regional sabitliyin saxlanmasına, qonşu dövlətlərlə baş verən ixtilafları ədalət normaları əsasında tənzimləməyə, bütün konfliktləri sülh yolu ilə həll etməyə səy göstərmişlər.

Məhz buna görə də Azərbaycana ikinci qayıdışı zamanı o, xalqının mənəvi yaralarını sağaltmaq, onun talan edilmiş təsərrüfatını dirçəltmək, xalqda özünə inam hissini oyatmaq, möhkəmlətmək naminə qarşısına möhtəşəm bir vəzifə - millətinə əmin-amanlıq vermək amalını qoymuşdu. Nə qədər təcrübəli dövlət adamı, diplomatik səriştəyə malik peşəkar siyasətçi olsa da, o, üzərinə düşən vəzifənin daha ağır və məsuliyyətli bir vəzifə olduğunu yaxşı dərk edirdi.

O, çox yaxşı bilirdi ki, ölkənin düçar olduğu ən ağır iqtisadi yaraları belə çətinliklə də olsa, sağaltmaq mümkündür. Lakin xalqın milli mənlik şüurunun düçar olduğu təhqir və məhrumiyyətlərin nəticələrini aradan qaldırmaq üçün illər, bəzən də onilliklər tələb olunur. Ölkə başçısını Vətənə qayıdarkən dəhşətləndirən ən faciəvi hal bu idi ki, o, vaxtilə firavan yaşayışını təmin etmək üçün bütün dövlətçilik məharətini sərf etdiyi xalqını ruhdan düşmüş, milli varlığı alçaldılmış, nadan rəhbərlərin səriştəsizliyi ucbatından öz dövlətinə olan inamını itirmiş vəziyyətdə görmüşdü. Milli oyanışın baş verdiyi bir şəraitdə özünün milli varlığını və dövlətinə inamını itirən xalqı mənəvi fəlakətdən qurtarmaq Vətənin gələcəyini qorumaq demək idi. Milli şüuru böhrandan xilas etmək xalqın yaradıcı potensialını pozitiv sosial-siyasi dəyərlərin təsdiqinə istiqamətləndirmək demək idi.

Heydər Əliyev səriştəli siyasətçi və təcrübəli dövlət xadimi kimi yaxşı dərk edirdi ki, xalqın, xüsusilə son 70 ildə onsuz da totalitar rejimin ehkamçı mühitində "formalaşmış" mənlik şüuru, tarixi yaddaşı yeni reallıqların ziddiyyətləri ilə üzləşəcək və əgər onun iradəsi düzgün məcraya istiqamətləndirilməsə, labüd fəlakətlər baş verəcəkdir. Belə də oldu. Azərbaycanın dövlət müstəqilliyinin elan olunmasına, xalqın demokratik hüquq və azadlıqlar əldə etməsi üçün real şəraitin yaradılmasına baxmayaraq, ölkənin hansı çətinliklərlə üzləşəcəyini yalnız Heydər Əliyev zəkası dərk edə bilərdi. Odur ki, rəhbərliyə yenidən qayıdarkən, onun dirçəlişi və qüdrəti naminə bütün səy və bacarığını əsirgəmədi, çünki başqa yol qalmamışdı: iqtisadiyyatı bərbad vəziyyətdə görməsi onun qəlbini ağrıtmışdı, xalqın yoxsul vəziyyətə düşməsi, siyasi qüvvələrin qarşıdurmasının gərgin şəkil alması, cəmiyyətdə hərc-mərcliyin baş alıb getməsi onun az qala bütün varlığını sarsıtmışdı.

Bəşər sivilizasiyasının inkişaf məntiqi dəfələrlə sübut etmişdir ki, keçmişdə olduğu kimi indi də milli-azadlıq hərəkatlarında ən ülvi, ən ağrılı məqamlar-azadlıq idealı naminə tökülən qanlar, əvəzsiz qurbanlar, insan kədərinin miqyası, verilən maddi və mənəvi itkilər xalqların mənəvi yaddaşından heç zaman silinmir. Bəlkə də tarixin ibrət dərsinin müdrikliyi bundadır ki, hər bir millətin sosial təfəkkürünü məhz onun tarixi gerçəkliyinin ağrılı, faciəli səhifələri formalaşdırır, onda tarixi qüsurları vaxtında aradan qaldırmaq immuniteti yaradır, gələcəyə nikbin baxmaq potensialını artırır.

Azərbaycan xalqı da belə bir taleyi yaşamışdır. Son on ildəki təlatümlərlə dolu, insan faciəsi və qaçqınlıqla bağlı illərimizə nəzər salmaq kifayətdir. Bu illər xalqımız üçün daha çətin, ağır dövr olmuşdur. Lakin bütün bunlara baxmayaraq, Heydər Əliyev Azərbaycan rəhbərliyinə Qayıdışı zamanı 1993-cü il iyunun 15-də qətiyyətlə belə bildirdi: "...Azərbaycan xalqının tarixi nəaliyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm... Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyi itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".10 il əvvəl peyğəmbər uzaqgörənliyi ilə söylənmiş bu sözlər bu gün də nə qədər əzəmətli və vüqarla səslənir.

Tamamilə təbiidir ki, demokratik cəmiyyət, bazar iqtisadiyyatı yaratmaq yolunu seçmiş Azərbaycan xalqının suveren dövlətinin quruculuğu prosesi həm daxili, həm də xarici siyasətin ahəngdar və düzgün əlaqələndirilməsini tələb edirdi. Lakin uzaqgörən siyasətçi Heydər Əliyev ölkədə daxili sabitliyin təmin olunmasını ön plana çəkməklə, cəmiyyətdə əmin-amanlıq yaratmağı mühüm milli vəzifə hesab etməklə, məhz bu əsas üzərində Azərbaycanın xarici ölkələrlə normal əlaqələrinin yaradılmasında vacib şərt sayırdı. İkinci qayıdışa qədər ölkədə sabitliyin olmaması üzündən hətta Orta Asiyanın istiqlaliyyət qazanmış türk xalqlarının dövlətləri də Azərbaycanla əlaqələrini faktiki olaraq kəsmişdilər. Bir sözlə, Heydər Əliyevin ölkənin rəhbərliyinə gəlməsinə qədər respublikanın mənəvi-siyasi durumu ciddi və yeni diplomatik fəaliyyətə ehtiyac yaratmışdır. Görkəmli diplomat başa düşürdü ki, ölkənin daxili, özü də ağır iqtisadi-siyasi problemlərinin həlli dünya birliyinə səriştəli xarici siyasətlə çıxmaq, Avropa, Amerika və Asiya ölkələrilə geniş hərtərəfli və məhsuldar diplomatik əlaqələr qurmaq lazımdır.

Belə bir diplomatiyanın əsasında isə demokratiya və sülh siyasəti qurmalı, bəşəri dəyərlərə xüsusi yer ayrılmalı idi. Ona görə də Heydər Əliyev diplomatiyasının bəhrələndiyi sülh mədəniyyətindən bəhs etməyi məqsədəuyğun sayırıq. Qeyd edək ki, BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatının – YUNESKO-nun təşəbbüsü ilə 2000-ci il "Sülh mədəniyyəti ili" elan olunmuşdur. Buna müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanda "Sülh mədəniyyəti ili"ni layiqincə qeyd etmək məqsədilə sərəncam vermişdir. Prezidentin sərəncamına əsasən Azərbaycan Respublikasının "Sülh mədəniyyəti ili" münasibətilə beynəlxalq tədbirlərdə fəal iştirakını təmin etmək üçün Milli Komitə yaradılması və ona müvafiq tədbirlər proqramı işləyib hazırlamaq tapşırığının verilməsi bir daha göstərir ki, müasir Azərbaycan gerçəkliyində demokratik prinsiplərin qərarlaşması prosesi müstəsna əhəmiyyət kəsb edir və Heydər Əliyev dövlətçilik siyasətinin diplomatiyasının başlıca qayəsi kimi çıxış edir. Birinci, ona görə ki, bunun tarixi zəmini vardır. Əsrlər boyu qonşu dövlətlərlə sülh və əmin-amanlıq şəraitində yaşamış xalqımızın həyat tərzi bunu aşkar nümayiş etdirir. İkincisi, tarixin amansız gedişatı nəticəsində vaxtilə Şərqdə ilk demokratik respublika qurmuş Azərbaycan xalqının iradə və istəyindən asılı olmayaraq, ölkədə yenicə cücərməyə başlayan demokratik proseslər dayandırılmışdır. Lakin tarix uzun məşəqqətlər hesabına olsa da, xalqımıza yenidən müstəqilliyini bərpa etmək imkanı vermiş, onun öz qədim mədəniyyəti ilə müasir sivilizasiya məkanına qovuşmasına real şərait yaratmışdır. Qanlı 20 Yanvar hadisəsindən sonra belə milli ruhu qırılmamış xalq öz suverenliyini qoruyub saxlamışdır.

"Demokratiyanı təsis etmək olmaz, onu yalnız səylə öyrənmək lazımdır" deyimi dövrümüzün siyasi reallığının danılmaz həqiqətidir.Çünki demokratiyaya yalnız onun uğurlu fəaliyyətinə şərait yaratmaqla çatmaq mümkündür.Bu prosesin özü olduqca ağrılı, çətin və ziddiyyətlidir. Bunu, heç olmasa, Azərbaycanın demokratiyaya keçid mərhələsinə qədəm qoyduğu "start potensialından" görmək mümkündür. Təqdirəlayiq hadisədir ki, bu gün möhtərəm Prezidentimiz Heydər Əliyevin müdrikliklə rəhbərlik etdiyi Azərbaycanın iftixar hissi duymağa haqqı vardır. Suveren Azərbaycan Respublikasının Avropa standartlarına tamamilə ca-

vab verən yeni Konstitusiyası qəbul edilmiş, çoxpartiyalılıq prinsiplərinə söykənən parlament sistemi (Milli Məclis) yaradılmış, cəmiyyətimizin həyatının bütün sahələrində cəsarətlə demokratik dəyişikliklərə başlanmışdır. Bu gün Prezidentin ətrafında birləşməklə, ictimai qarşılıqlı anlaşma və razılıq şəraitində, çətinliklə də olsa, bir sıra mürəkkəb daxili problemlərimizi həll edə bilmişik. Hazırda sülh mədəniyyətinin bərqərar olmasında ən mühüm töhfəmiz, heç olmasa, budur ki, biz dünya demokratiya praktikasını və yeniləşmə prosesləri təcrübəsini öyrənirik. Məhz buna görə də, sülh mədəniyyətinin bəşəri qayğı olmasını Azərbaycanın diplomatik fəaliyyəti son dərəcə aktual hadisə kimi qəbul edir, bunu dünya birliyində layiqli yer tutmağın şərti kimi qiymətləndirir.

Suveren Azərbaycan Respublikası məhz belə geosiyasi reallıqlar şəraitində, başa çatmaqda olan əsrimizin sonunda əsl diplomatik fəaliyyət kimi məsul bir vəzifəni nümayiş etdirməyi xalqımız və tariximiz Heydər Əliyev kimi zəngin siyasi təcrübəyə malik dövlət xadiminə etibar etdi. Dünya və siyasət minilliklər ərzində öz inkişafında mühüm dəyişikliklərə və təkamülə məruz qalsa da, Azərbaycan xalqının başçıları, əsrin əvvəlində olduğu kimi, bu gün də özünün iradəsinə və diplomatik institutlarına arxalanaraq dövlətçiliyimizin müstəqilliyini əzmlə qorumaqdadır.

Heydər Əliyev diplomatiyasının başlıca konseptual prinsipi belə olmuşdur: Azərbaycanı tanımaq və bundan ötrü informasiya və iqtisadi blokadanı yarmaq, diplomatik təcridlikdən çıxmaq dünya siyasətini formalaşdıran dövlətlərlə simmetrik ittifaqa daxil olub Azərbaycan Respublikasının müasir geosiyasi reallıqlara əsaslanan xarici siyasətini qurmaqla, xalqımızın milli mənafelərini ləyaqətlə həyata keçirmək. Ölkə Prezidentinin xarici siyasətimizlə dialektik vəhdətdə olan diplomatik fəaliyyəti bu gün respublikamızı dünya birliyinə dəyərincə tanıtmış, onun beynəlxalq münasibətlər subyekti kimi özünəlayiq yer tutmasında önəmli rol oynamışdır.

Prezident Heydər Əliyevin diplomatik fəaliyyətini konseptual dəyərləndirmə mövqeyindən üç dövrə bölmək olar: Birincisi, Sovet dövrü, SSRİ tərkibində Azərbaycan SSR-ə rəhbərlik etdiyi mərhələ. Həmin dövrdə Heydər Əliyevin diplomatik fəaliyyətinin əsasında "respublikanın birbaşa beynəlxalq əlaqələrini yaratmaq" konsepsiyası durmuşdur. Hələ 1969-cu ildən Azərbaycan partiya təşkilatına rəhbərlik edən Heydər Əliyev Qərb dövlətləri ilə Azərbaycanın mümkün əlaqələrini yaratmağa böyük səy göstərmiş, respublikanı və xalqımızı tanıtmaq üçün əlindən gələni etmişdir. O illərdə Bakıda olmuş hökumət və dövlət nümayəndəliklərini, dünya şöhrətli siyasətçiləri qəbul edərkən, onlarla apardığı söhbətlərdə xalqımızın qədim tarixi və mədəniyyəti, azərbaycanlıların dünya sivilizasiyasında tutduğu layiqli yer barədə geniş məlumatlar verərkən o, sovet ideolgiyası şəraitində heç də asan olmayan bir vəzifəni xalqımızın dünyada tanınması üçün son dərəcə önəmli bir borcunu yerinə yetirir. Onun yaxından dəstəyi və iştirakı ilə keçirilən regional, ümumittifaq və beynəlxalq simpoziumlar, siyasət, iqtisadiyyat



və mədəniyyət məsələlərinə həsr olunmuş toplantılarda Heydər Əliyev sanballı, dərin məzmunlu çıxışları ilə Azərbaycana şöhrət gətirmiş, ölkəmizin bəşəriyyətin sənaye tarixində önəmli yer tutduğuna xarici qonaqları inandıra bilirdi.

Heç şübhə etməmək olar ki, Azərbaycanın gələcəkdə planet miqyasında tanınması, onun dünya iqtisadi sisteminə inteqrasiyasının, keyfiyyətcə yeni xarici siyasətin və diplomatik əlaqələrinin ilkin əsasları məhz Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin sovet dövründə qoyulmuşdur.

Prezident Heydər Əliyevin diplomatik fəaliyyətinin ikinci dövrü Moskvada məsul dövlət və partiya vəzifələrində çalışdığı mərhələdir. Bu dövrü şərti olaraq konseptual şəkildə belə səciyyələndirmək olar: "Azərbaycanı beynəlxalq inteqrativ əlaqələr sisteminə daxil etmək". Böyük dövlətin ali rəhbərliyinin tərkibində məsul vəzifədə çalışarkən, bir sıra ciddi beynəlxalq qərarların qəbul olunmasında fəal iştirak edərkən özünün diplomatik bacarığı ilə Qərb dövlətlərinin nəzərini cəlb edirdi. Uzaqgörən siyasətçi kimi, SSRİ-nin dağılmasını irəlicədən görən Heydər Əliyev çox yaxşı bilirdi ki, bu böyük dövlət parçalandıqdan sonra Qərb dövlətləri, ilk növbədə ABŞ Azərbaycanla iqtisadi əlaqələrin genişləndirilməsinə böyük maraq göstərəcək, Vətənin əlverişli coğrafi mövqeyi və zəngin resursları onu böyük geosiyasət meydanına çıxaracaqdır. Buna görə də, o, Azərbaycanın xarici ölkələrlə əlaqələrinin genişlənməsinə müstəsna əhəmiyyət verir, onun dünya iqtisadiyyatına inteqrasiyasına hələ o zaman böyük səy göstərirdi. O, xarici, xüsusilə Qərb dövlətlərində olarkən, yaxud onların nümayəndələrini Moskvada qəbul edərkən o dövrkü Sovetlər İttifaqının zəngin iqtisadiyyatında Azərbaycanın təbii sərvətlərinin tutduğu önəmli yerdən, Bakı neft mütəxəssislərinin dünya şöhrətindən geniş söhbət açar, bununla xarici siyasətçilərin və biznesmenlərin respublika iqtisadiyyatına diqqətini cəlb edirdi. Bu gün cəsarətlə demək olar ki, hazırda Qərb siyasətində Azərbaycanın gələcək iştirakının möhkəm zəmini Heydər Əliyevin "Moskva dövrü" fəaliyyəti sayəsində yaradılmışdır.

Nəhayət, Heydər Əliyev diplomatiyasının ən önəmli və xalqımızın tarixində xüsusi iz qoyan dövrü Azərbaycana ikinci qayıdışından sonra respublikaya bu günə kimi rəhbərlik etdiyi üçüncü mərhələdir. Onun hazırda uğurla formalaşdırdığı və eyni müvəffəqiyyətlə həyata keçirdiyi xarici siyasət milli mənafelərin təntənəsi naminə həyata keçirilir. Bunu konseptual şəkildə belə hesab etmək olar: "Müstəqilliyimiz əbədidir". Heydər Əliyevin hazırkı müdrik siyasəti sübut edir və etməkdədir ki, məhz bu təcrübəli dövlət xadiminin diplomatik fəaliyyəti dövründə suveren Azərbaycan Respublikasının Qərb ölkələri, xüsusilə ABŞ-la həm diplomatik, həm də iqtisadi münasibətləri geniş vüsət almışdır.

Azərbaycan Prezidenti Möhtərəm Heydər Əliyev müasir tariximizdə ilk uğurlu diplomatik səhifəni 1993-cü il dekabrın 19-da Fransaya rəsmi səfəri ilə açdı. Bu, diplomatik addımın vacibliyini Heydər Əliyev Moskvada işləyərkən dərk etmişdi. Dünya siyasəti sistemində özünün diplomatik tarixi ilə geniş və unikal nüfuz qazanmış Fransaya səfər zamanı Heydər Əliyev yaxşı bilirdi ki, siviliza-

siya tarixində əvəzsiz yeri olan bu ölkə, nəinki zəngin mədəniyyəti ilə, həmçinin danılmaz siyasi ənənələri ilə də məşhurdur.

Dekabrın 20-də Elisey sarayında bağlı qapılar arxasında saat yarım davam edən söhbətdə Fransa Prezidenti, nüfuzlu dövlət başçısı Fransua Mitteran ilk dəqiqələrdən yüksək professionalizmə malik diplomatla söhbət etdiyini başa düşmüşdür. Heydər Əliyev söhbətdə Qarabağ konfliktinin xarakterini izah edərək, bu diyarın Azərbaycanın əzəli ərazisinin ayrılmaz hissəsi olduğunu Fransa tərəfinə inandıra bilmişdir. Fransa prezidenti bir daha etiraf etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü və sərhədləri toxunulmazdır.

Ölkə Prezidenti Heydər Əliyevin suveren Azərbaycanın dövlət başçısı kimi "Avropa diplomatiyası" mərhələsində ikinci önəmli təması Böyük Britaniyanın baş naziri Con Meycorun dəvətilə rəsmi səfəri 1994-cü ilin fevralında İngiltərəyə oldu.

Forin Offisdə suveren Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük Britaniyanın baş naziri Con Meycorla görüşü sayəsində hər iki ölkənin xarici siyasət münasibətlərində yeni eranın başlanğıcı qoyulmuş oldu. Böyük Britaniyanın baş naziri Azərbaycanla tərəfdaşlıqda Azərbaycanın iqtisadi potensialına böyük maraq göstərdiyini bildirməklə yanaşı, qeyd etmişdir ki, bizim respublikanın siyasi mənafelərini də dəstəkləyəcəkdir. İngiltərə hökumətinin başçısı Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə tanımaqla yanaşı, bunu da xüsusilə vurğulamışdır ki, Dağlıq Qarabağ suveren Azərbaycan Respublikasının ayrılmaz hissəsidir.

Prezident Heydər Əliyev səfərin böyük əhəmiyyətini göstərərək bir daha qeyd edir ki, bizim Böyük Britaniyaya – dünyada ən yüksək siyasi nüfuzu olan, beynəlxalq iqtisadi sistemdə aparıcı yerlərdən birini tutan, qədim tarixi və mədəniyyəti olan bir ölkəyə səfərimiz Azərbaycan üçün müstəsna dəyər kəsb edir. Biz bu ölkədən çox şey öyrənə bilərik və bizim siyasi plüralizmə, çoxpartiyalı sistemə, azad mətbuata, bir sözlə demokratik institutların inkişafına rəvac verən cəmiyyətimizin gənc demokratiya kimi buna ciddi ehtiyacı var.

Xaricdən güclü antiazərbaycan fəaliyyəti və respublika rəhbərliyinin tam fəaliyyətsizliyi və səriştəsizliyi sayəsində 20 Yanvar faciəsini yaşamış Vətəninə qayıdarkən milli özünə inam hissini itirmiş, psixoloji və mənəvi səfərbəredici resursları sarsılmış millətinə köməyə gələrkən Heydər Əliyev Amerika ilə Azərbaycan arasında ikitərəfli faydalı münasibətlər yaratmağın vacibliyini göstərmişdi. Lakin bundan ötrü ölkənin siyasi imicinin bərpası üçün o, çox iş görməli olmuş, üst-üstə qalanmış sosial problemlərin həlli üçün əzmkar təşkilatçılıq fəaliyyəti nümayiş etdirmiş, xüsusilə əvvəlki respublika rəhbərliyinin Amerika-Azərbaycan əlaqələrini qurmaq sahəsində səriştəsiz və laqeyd əməllərinin "bəhrəsini" aradan qaldırmaq üçün real, "işləyə biləcək" diplomatik konsepsiya üzərində çalışmışdır. Hər şeydən əvvəl, ABŞ-ın geosiyasi mənafeləri sistemində bu ölkənin Ermənistana və Azərbaycana münasibətdə siyasətinin analitik təhlil edilməsi, ABŞ-ın yeni demokratiya dövlətlərinə münasibətinin əsas dəyər parametrlərinin-müstəqillik, demokratiya, insan hüquqları, bazar iqtisadiyyatı, azad iqtisadi əməkdaşlıq prinsiplərinin Azərbaycan gerçəkliyində həyata keçirmək mexanizminin işlənib hazırlanması idi.

Daha mühüm "diplomatik qayğı" bundan ibarət idi ki, respublika Prezidenti erməni lobbisinin ABŞ konqresinə güclü siyasi təsir göstərən ölkəyə səfərə hazırlaşarkən, keçmiş rəhbərliyin bədnam, heç bir müasir diplomatik münasibətlər çərçivəsinə sığmayan "cəbhəçi xarici siyasəti" nəticəsində konqresin ölkəmizə ədalətsizcəsinə tətbiq etdiyi 907-ci düzəlişə qarşı Azərbaycanın haqlı etirazını bildirmək və onun aradan qaldırılmasına nail olmaq üçün tədbirlər sistemini müzakirə etmək olmuşdur.

Bir sözlə, Amerika səfərindən başlıca məqsəd iki ölkə arasında mürəkkəb və ziddiyyətli münasibətlərin tədricən rəvan məcraya salınması və qarşılıqlı, milli mənafelərə hörmətə, faydalı və strateji əməkdaşlığa söykənən diplomatik münasibətlər yaratmaq idi.

1994-cü il sentyabrın 26-da BMT Baş məclisinin 49-cu sessiyasında suveren Azərbaycanı təmsil etmək üçün Nyu-York hava limanında təyyarədən düşərkən ölkə Prezidenti Heydər Əliyev özünün diplomatik fəaliyyətinin ən önəmli və ən məsuliyyətli mərhələsini yaşadığını yaxşı bilirdi.

ABŞ-ın Azərbaycanın dövlətçiliyi, müstəqilliyi və təhlükəsizliyi üçün nə qədər müstəsna rol oynaya biləcəyini yalnız Heydər Əliyevin uzaqgörən zəkası, diplomatik intellekti dərk edə bilmişdi. Cəbhəçi siyasətçilərin Azərbaycan xalqının mövcud məqamda taleyüklü problemlərini həll edə bilməmək acizliyində yarana biləcək təhlükənin mahiyyətini dərindən dərk edən Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev 1993-cü ilin yanvarında yenicə prezidentlik fəaliyyətinə başlayan ABŞ Prezidenti Bill Klintona məktub göndərdi və Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasının qarşısını almaq üçün Amerika hökumətinin bütün imkanlarından istifadə edəcəyinə ümid etdiyini bildirdi. Bu diplomatik addım öz bəhrəsini verdi: 1993-cü ilin yanvar ayında ABŞ və Rusiya prezidentləri Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan konfliktindən narahatlıqlarını bildirərək konflikti nizama salmaq məqsədilə dərhal ATƏM-in Minsk konfransının çağırılmasına tərəfdar olduqlarını bəyan etdilər. Bununla suveren Azərbaycanın anlaşılmazlıq gerçəkliyində ilk dəfə olaraq düşünülmüş və uğurlu diplomatik addım atıldı, müstəqil respublikamıza onun siyasi varlığına qarşı yönəlmiş erməni təxribatlarına və daxili hərc-mərcliyə son qoymaq yolunda cəsarətli və müdrik təşəbbüs edildi və bu gün əminliklə deyə bilərik ki, sağlam düşüncə diplomatiyasının əsası qoyuldu. Belə ki, tezliklə 1993-cü il fevral ayının 4-də ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls Bill Klintonun regiondakı siyasi hərcmərclikdən narahatlığını bildirmək üçün Naxçıvana yola düşdü, blokada şəraitində yaşayan Azərbaycanın bu diyarına təcili humanitar yardım haqqında ABŞ prezidentinin qərarını həyata keçirən Proqramın rəhbəri Riçard Armintat tərəfindən göndərilən məktubu Heydər Əliyevə təqdim etdi.

Vətənin və xalqının ağrılarını dərindən yaşayan Heydər Əliyev belə bir informasiya blokadası şəraitində ABŞ səfirinə Dağlıq Qarabağ problemini qondarma, Sovet siyasi gerçəkliyinin dağıdılması üçün istifadə olunan problem olduğu, Ermənistan-Azərbaycan konfliktinin süni olaraq yaradılmasının kökləri barədə geniş məlumat vermişdir. Bu inandırıcı informasiya mübadiləsinin real nəticəsi olaraq, Azərbaycana qarşı hər cür yardımı qadağan edən "907-ci düzəlişin" qüvvədə qalmasına baxmayaraq, Amerikanın humanitar yardımı yüklənmiş təyyarə Naxçıvan hava limanına enir. Bu mənəvi siyasi aksiya fikrimizcə, dəyərincə qiymətləndirilməlidir. Birincisi, yardımı təşkil edən siyasətçilər və onu bilavasitə Naxçıvana gətirən Amerika iş adamları aydın gördülər ki, Ermənistan yox, məhz Naxçıvan həm iqtisadi, həm də informasiya blokadasındadır. İkincisi, bəlkə daha önəmli olan cəhət budur ki, bu Heydər Əliyevin beynəlxalq ünsiyyət təşəbbüsü gələcəkdə Amerika-Azərbaycan diplomatik əlaqələrinin sağlam düşüncə baxımından genişlənməsi üçün yeni təsirli təkan oldu.

Bu gün iftixarla demək olar ki, Azərbaycan Prezidenti cənab Heydər Əliyevin dönmədən uğurla həyata keçirdiyi daxili və xarici siyasət xətti bütün dünyada dərin nüfuz qazanmışdır və bu nüfuz gündən-günə genişlənməkdədir.